# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 79** **Bakı şəhəri, 14 mart 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69; 2002, № 2, maddə 112, № 10, maddə 647; 2005, № 1, maddə 58, № 11, maddə 1069; 2013, № 7, maddə 870; 2014, № 1, maddə 64, № 2, maddə 196; 2015, № 1, maddə 69; 2016, № 8, maddə 1444; 2017, № 7, maddə 1489, № 8, maddələr 1614, 1620, № 12 (II kitab), maddə 2521; 2018, № 3, maddə 585, № 10, maddə 2168; 2019, № 1, maddə 149, № 4, maddə 760, № 7, maddə 1348, № 8, maddə 1474; 2020, № 2, maddələr 194, 218; 2021, № 4, maddə 391; Azərbaycan Respub-likası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 368 nömrəli və 2022-ci il 29 yanvar tarixli 33 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "2207 10 000 0", "2208 90 910 0" və "2208 90 990 0" alt yarımmövqelərinə aid sətirlərin "Aksiz dərəcələri (ölçü vahidinə görə, manatla)" sütununda "5,2" rəqəmləri "6,0" rəqəmləri ilə əvəz edilsin;

1.2. "2208 20" yarımmövqeyinə aid sətrin "Aksiz dərəcələri (ölçü vahidinə görə, manatla)" sütununda "7,2" rəqəmləri "8,0" rəqəmləri ilə əvəz edilsin;

1.3. "2208 30", "2208 40", "2208 50", "2208 60", "2208 70" yarımmövqelərinə və "2208 90 110 0-2208 90 780 9 (2208 90 690 1 və 2208 90 780 1 istisna olmaqla)" alt yarımmövqelərinə aid sətirlərin "Aksiz dərəcələri (ölçü vahidinə görə, manatla)" sütununda "11,2" rəqəmləri "12,0" rəqəmləri ilə əvəz edilsin;

1.4. "2402 20" yarımmövqeyinə və "2402 90 000 9" alt yarımmövqeyinə aid sətirlərin "Aksiz dərəcələri (ölçü vahidinə görə, manatla)" sütununda "43,0" rəqəmləri "46,5" rəqəmləri ilə əvəz edilsin;

1.5. "2403 99 900 2" alt yarımmövqeyinə aid sətrin "Aksiz dərəcələri (ölçü vahidinə görə, manatla)" sütununda "12,9" rəqəmləri "14,0" rəqəmləri ilə əvəz edilsin;

1.6. "2403 11 000 0", "2403 19 100 9", "2403 19 900 9", "2403 91 000 0", "2403 99 100 0" alt yarımmövqelərinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2403 11 000 0<br>2403 19 100 9<br>2403 19 900 9<br>2403 91 000 0<br>2403 99 100 0<br>2403 99 900 3 | qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər | 1 kq üçün 30 manat |

1.7. "2403 99 900 2" alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 2403 99 900 4 | birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri | 1 ədəd üçün 0,25 manat |

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2022.- 16 mart.- S.8.